# Azərbaycan-Pakistan münasibətləri möhkəm hüquqi və siyasi təməl üzərində formalaşıb

**Azərbaycanla Pakistan arasında əlaqələr son zamanlar yeni əməkdaşlıq müstəvilərini əhatə etməkdədir. İkitərəfli əməkdaşlıqdakı müsbət dinamika özünü bütün sahələrdə göstərir. Pakistan Senatının Sədri Syed Yusuf Raza Gilaninin Bakıda keçirilən Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirak məqsədi ilə ölkəmizə səfər etməsi və Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi bunu bir daha təsdiqləyir. İki ölkə arasında parlamentlər səviyyəsində də olan səmimi dialoq Milli Məclisin Sədri Sahibə Qafarova ilə keçirilən görüşdə davam etdirilib.**



İkitərəfli münasibətlərin hazırkı durumu barədə qəzetimizə danışan Milli Məclisin deputatı, parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Rizvan Nəbiyevin fikrincə, bu da bir daha sübut edir ki, Azərbaycan və Pakistan arasındakı münasibətlər həm ikitərəfli, həm də çoxtərəfli formatda, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir. Onun sözlərinə görə, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiya Parlament Assambleyası və BMT çərçivəsində də iki ölkə arasında güclü əməkdaşlıq əlaqələri var. Bundan əlavə Azərbaycan-Türkiyə-Pakistan formatında da müxtəlif sahələr üzrə əməkdaşlıq genişlənir və bu formatın böyük perspektivləri var.

Milli Məclisin deputatı vurğulayıb ki, Azərbaycan və Pakistan arasındakı münasibətləri fərqləndirən əsas xüsusiyyətlər onun həm möhkəm təməl üzərində qurulması, həm də çoxşaxəli olmasıdır: "Bu təməl Azərbaycanın müstəqilliyinin ilk günlərindən formalaşıb. Azərbaycan və Pakistan arasındakı tarixi dostluq və qardaşlıq əlaqələri dərin köklərə malikdir. İki ölkə arasında diplomatik münasibətlər Azərbaycanın müstəqilliyini elan etməsindən qısa müddət sonra, 1992-ci ilin iyun ayında qurulub və həmin vaxtdan yüksək səviyyədə və pozitiv dinamika ilə inkişaf etməkdədir".

Parlamentari bildirib ki, Azərbaycanın müstəqilliyini qardaş Türkiyədən sonra ilk tanıyan ikinci dövlət Pakistan olub və bu sovetlər ittifaqının dağılmasından əvvəl 1991-ci il dekabrın 12-də baş verib: "Həmçinin torpaqlarımız işğal altında olduğu müddətdə Pakistan Ermənistanla diplomatik münasibətlər qurmayıb və bu gün də belə azsaylı dövlətlərdəndir. İslamabadın bu qardaşlıq və beynəlxalq hüquqa əsaslanan dəstəyi Azərbaycan-Pakistan münasibətlərinin formalaşmasına mühüm töhfə verir. Xüsusilə Vətən müharibəsi dövründə Pakistanın həmrəyliyi və ölkəmizə siyasi dəstəyi hər zaman hiss olunub".

Bakı ilə İslamabad arasında münasibətlərin həm ikitərəfli, həm də çoxtərəfli formatlarda daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi hər iki ölkənin marağındadır. Faktiki olaraq strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlərin genişləndirilməsi indiki geosiyasi şəraitdə hər iki tərəf üçün vacibdir. Rizvan Nəbiyev bildirib ki, bu münasibətlərin uğurlu inkişafını xarakterizə edən digər məqam isə Azərbaycan Prezidenti ilə Pakistanın siyasi rəhbərliyi arasındakı səmimi və qarşılıqlı maraq doğuran bütün məsələləri əhatə edən dialoqun olmasıdır. Dövlət başçıları arasında qurulan bu yaxın əlaqələr, təbii ki, münasibətlərin müsbət məcrada inkişafına ciddi təsir göstərir. Dövlət rəhbərləri səviyyəsində mütəmadi səfərlər mübadiləsi həyata keçirilir. Elə bu günlərdə Pakistan Senatının Sədri Azərbaycana səfər edib və Bakıda keçirilən Asiya Parlament Assambleyasının XV plenar iclası çərçivəsində çıxış edib.

Qeyd edək ki, Pakistan Senatının Sədri həmin iclasda çıxışında beynəlxalq münasibətlər sistemində multilateralizmin, çoxşaxəliliyin və çoxqütblülüyün möhkəmləndirilməsində parlament diplomatiyasının rolu barədə danışıb. Qlobal gündəmin sürətlə dəyişdiyini və bu prosesdə Asiyanın mühüm rol oynadığını deyən Syed Yusuf Raza Gilani regionumuzun beynəlxalq təhlükəsizlik və geosiyasi dəyişikliklərdə fəal iştirak etdiyini və bu kontekstdə parlament diplomatiyasının bir körpü rolunu oynadığını bildirib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 23 fevral (№ 41).- S.4.